# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

22 (95) 27 dekabr 2017-ci il İctimai-siyasi qəzet


# Prezident İlham Əliyev ISESCO-nun baş direktorunu qəbul edib



Prezident İlham Əliyev ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycrini qəbul edib.

ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycri Bakıda keçirilən "2017 – İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfransın yüksək səviyyədə təşkilinə verdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Konfransın əhəmiyyətini vurğulayan Əbdüləziz Osman əl-Tuveycri tədbirdə müxtəlif ölkələrdən ayrı-ayrı dinlərin nümayəndələrinin iştirakının önəmini qeyd etdi. ISESCO-nun baş direktoru bildirdi ki, Prezident İlham Əliyevin konfransdakı dərin məzmunlu nitqi böyük əhəmiyyət daşıyır.

Prezident İlham Əliyev xoş sözlərə görə təşəkkürünü bildirdi və Əbdüləziz Osman əl-Tuveycrinin konfransda iştirakının və çıxışının önəmini qeyd etdi. Dövlətimizin başçısı Əbdüləziz Osman əl-Tuveycrinin konfransdakı çıxışı zamanı və eləcə də digər tədbirlərdə hər zaman Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı nümayiş etdirdiyi ədalətli mövqeyi yüksək qiymətləndirdi.

ISESCO-nun baş direktoru bildirdi ki, Azərbaycanda gedən hərtərəfli, davamlı inkişaf prosesləri və Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə əldə olunan möhtəşəm uğurlar İslam dünyasında və ondan kənarda böyük maraqla qarşılanır.

Görüşdə Azərbaycan ilə ISESCO arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi və əlaqələrimizin bundan sonra daha da möhkəmlənəcəyinə əminlik ifadə olundu.

# Prezident İlham Əliyev Özbəkistan Prezidentinin dövlət müşavirini qəbul edib

Prezident İlham Əliyev Özbəkistan Respublikası Prezidentinin dövlət müşaviri Rüstəm Kamilovu qəbul edib.

Prezident İlham Əliyev Bakıda keçirilən "2017-İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfransda Özbəkistanın yüksək səviyyəli nümayəndə heyəti ilə təmsil olunduğuna görə minnətdarlığını ifadə etdi. Dövlətimizin başçısı "İslam Həmrəyliyi İli" çərçivəsində qardaş ölkədə də konfransın keçirilməsinin əhəmiyyətini vurğuladı.

Dövlət müşaviri Rüstəm Kamilov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını dövlətimizin başçısına çatdır-



dı. Rüstəm Kamilov bildirdi ki, xalqın tolerantlığı və sülhün qorunub saxlanmasına ölkələrimizin bir çox eyni yanaşması var. Tolerantlığın əhəmiyyətindən danışan qonaq insanların birgə yaşayaraq, ölkənin inkişafı üçün çalışmalarının önəmini vurğuladı. Rüstəm Kamilov İslam ənənələrinin dirçəlişinin, İslam irsinin yaşadılmasının və gələcək nəsillərə ötürülməsinin Özbəkistanda prioritet istiqamətlərdən biri olduğunu bildirdi.

Prezident İlham Əliyev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Özbəkistan dövlətinin başçısına çatdırmağı xahiş etdi.

# Respublika Veteranlar Təşkilatının 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə veteranlara təbriki



***Əziz və hörmətli veteranlar!***

Sizi qarşıdan gələn 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni 2018-ci il münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Dünya Azərbaycanlılarının Həmrəylik Gününü ən yüksək səviyyədə bayram kimi qeyd etmək xalqımızın ictimai fikir tarixində əlamətdar bir hadisəyə çevrilmişdir. Hər birimiz üçün əziz və doğma olan bayram dünyanın müxtəlif qitələrində yaşayan soydaşlarımızın birliyinin təcəssümüdür.

2017-ci il biz veteranlar üçün yaddaqalan oldu. Həyata keçirdiyimiz tədbirlər, konfranslar, gənclərlə görüşlər, yubileylər xalqımız tərəfindən rəğbətlə qarşılandı. Bu baxımdan 2018-ci il daha uğurlu olacaqdır. Azərbaycan bu gün müstəqillik və inkişaf yolunda inamla irəliləyir. Bizim əsas vəzifəmiz müstəqiliyimizi qorumaq, ərazi bütövlüyümüzü tez bir zamanda bərpa etmək, respublikanın hərtərəfli inkişafına töhvələr verməkdir. Bunun üçün biz veteranlar bütün potensiyalımızı səfərbər etməli, gənc nəslin vətənpərvər ruhda tərbiyə edilməsi, onlara vətən, xalq sevgisini aşılamaq kimi ən ümdə vəzifəmizin öhdəsindən gəlməliyik. Əminliklə deyə bilərik ki, biz veteranlar qarşıdan gələn ildə də fəaliyyətimizi davam etdirəcək, respublikanın inkişafı naminə əlimizdən gələni əsirgəməyəcək, üzərimizə düşən işin öhdəsindən layiqincə gələrək, Azərbaycan Respublikasını əmin əllərdə saxlayan gəncliyi yetişdirməyə davam edəcəyik.

Yeni iliniz mübarək! Hər birinizə yeni-yeni uğurlar, ailənizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Tofiq Ağahüseynov
general polkovnik,
Respublika Veteranlar Təşkilatının sədri

AZƏRBAYCAN VETERANI

# Respublika Veteranlar Təşkilatı ilə Qara dəniz-Xəzər regionu ölkələrinin Hüquqşünaslar Assosiasiyasının əməkdaşlığı veteran hərəkatına xüsusi töhvələr verəcək

15 dekabr 2017-ci il tarixində Respublikanın əməkdar hüquqşünası Rusiya Təhlükəsizlik, Müdafiə, Qanunun aliliyi Akademiyasının akademiki, Qara dəniz-Xəzər regionu ölkələrinin Hüquqşünaslar Assosiasiyasının rəhbəri, hüquq elmləri doktoru, professor İlham Rəhimov Respublika Veteranlar Təşkilatında olmuşdur.

Öncə İlham Rəhimov Respublika Veteranlar Təşkilatında yaradılmış şəraitlə tanış oldu. Təşkilatın tarixi, Respublikamızda həyata keçirilən veteran hərəkatında Təşkilatın rolu, eləcə də, Prezident İlham Əliyevin veteranlara göstərdiyi diqqət və qayğı barəsində qonağa geniş məlumat verildi.

Daha sonra Respublika Veteranlar Təşkilatının sədri general polkovnik Tofiq Ağahüseynovla professor İlham Rəhimovun görüşü keçirildi. Görüşdə həmçinin Respublika Veteranlar Təşkilatının sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov və Təşkilatın Rəyasət Heyətinin üzvü hüquq elmləri doktoru, professor Bəhram Zahidov da iştirak etmişdir.

General polkovnik Tofiq Ağahüseynov İlham Rəhimovu qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik etmişdir. Təşkilatın sədri İlham Rəhimovun Azərbaycan xalqı və elmi qarşısında danılmaz fəaliyyəti olduğunu diqqətə çatdırdı. Veteranların hüquqlarının müdafiəsi, onların sosial problemlərinin həlli istiqamətində gördüyü işlərin təqdirəlayiq olduğunu bildirdi.

İlham Rəhimov da öz növbəsində Tofiq Ağahüseynovun timsalında bütün veteranları Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik etdi. Respublika Veteranlar Təşkilatında yaradılmış şəraiti yüksək qiymətləndirən İlham Rəhimov Təşkilatla tanışlıqdan məmnunluq ifadə etdi. Respublikamızda veteran hərəkatının yüksələn xəttlə inkişaf etdiyini, bu sahəyə dövlət tərəfindən xüsusi diqqət və qayğı göstərildiyini, Respublika Veteranlar Təşkilatının bütün qəbildən olan veteranların sosial problemlərinin həlli istiqamətində gördüyü işlərin əvəzsiz olduğunu bildirdi. Təşkilatın əməkdaşlarının işini yüksək qiymətləndirərək onlara fəaliyyətlərində müvəffəqiyyətlər arzuladı.





İlham Rəhimov rəhbərlik etdiyi Qara dəniz-Xəzər regionu ölkələrinin Hüquqşünaslar Assosiasiyasının Azərbaycan Respublikasında həyata keçirdiyi, xüsusən də veteranların hüquqları sahəsində gördüyü işlər barəsində məlumat verdi. Assosiasiyanın Respublika Veteranlar Təşkilatı ilə əməkdaşlıq etməyə və gələcəkdə Veteranların hüquqlarının müdafiəsi sahəsində Təşkilata dəstək olmağa hazır olduğunu diqqətə çatdırdı.

Görüşdə Respublika Veteranlar Təşkilatı ilə Qara dəniz-Xəzər regionu ölkələrinin Hüquqşünaslar Assosiasiyası arasında əməkdaşlıq haqqında fikir mübadiləsi aparıldı. Əməkdaşlığın hər iki qurum üçün xüsusi önəm daşıdığı ifadə edildi.

Daha sonra Respublika Veteranlar Təşkilatının sədri Tofiq Ağahüseynov İlham Rəhimova respublikada həyata keçirilən veteran hərəkatındakı fəal iştirakına görə Təşkilatın təsis etdiyi “Veteran Həmrəyliyi” və “Həzi Aslanov” yubiley medalını təqdim etdi.

Sonda Xatirə şəkli çəkdirildi.

# Narkotiksiz, siqaretsiz və alkoqolsuz sağlam həyata doğru

Bakı şəhəri Nizami rayonunda yerləşən 4 saylı Bakı Peşə Liseyində “Narkotiksiz, siqaretsiz və alkoqolsuz sağlam həyata doğru” başlığı altında tədbir keçirilmişdir.

Tədbirdə Nizami rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Əli Axundov, həmin şöbənin baş məsləhətçiləri İsa Hüseynov və Mürvət İbrahimov, Bakı şəhəri Baş Polis İdarəsi İctimai Təhlükəsizlik İdarəsinin baş inspektoru Polis mayoru Kəmalə Əsgərova, Nizami Rayon Polis İdarəsinin Yetkinlik Yaşına Çatmayanların işləri üzrə bölmənin rəisi polis kapitanı Yaşar Həsənov, Respublika Veteranlar Təşkilatının Gənclərin hərbi vətənpərvərlik şöbəsinin müdiri polkovnik Adil Haqverdiyev və Nəbi Hacıyev Nizami rayon Veteranlar Təşkilatının sədri Yəhya Ağayev, Akademik M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin həkimi Həzi Aslanov, məktəbin müəllim və şagird kollektivi iştirak etmişdirlər. Öncə liseyin direktoru polkovnik Qalib Həsənov şagirdlərin əl işlərindən təşkil olunmuş sərgi ilə qonaqları tanış etdi. Qaynaqçıların, oymaçıların, misgərlərin, toxucuların əl işləri maraqla qarşılandı.

Tədbir liseyin akt zalında davam etdirildi. Giriş sözü ilə tədbiri liseyin direktoru Q.Həsənov açdı. O, şagirdlərin öz peşələrinə həvəslə yanaşmasından, yeni yaranmış “ABAD”ın şagirdlərin əl işlərinin satışını təşkil etməsindən, Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımovun onlara göstərdiyi qayğıdan, eləcə də narkomaniyanın heç bir yaş həddi tanımayaraq genefond üçün böyük təhlükə olduğunu və yeniyetmələrə narkomanlardan uzaq durmaq və cəmiyyətdə bu bəlaya qarşı mübarizə aparmağın lazımlılığından danışdı.



Adil Haqverdiyev çıxışında ölkənin hər yerində narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, narkomanlığa düçar olmuş şəxslərin sağlam həyata qaytarılması və digər məsələlərlə bağlı qarşıda ciddi vəzifələr olduğunu qeyd edib. Bildirib ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra bir sıra problemlər kimi narkomaniyaya qarşı mübarizə tədbirlərinin görülməsinin vacibliyi ön plana çıxıb və problemə münasibətdə yeni mərhələ başlanıb.

Polis kapitanı Yaşar Həsənov: “Azərbaycan Respublikası, həmçinin bu sahədə müvafiq beynəlxalq sənədlərə və təşəbbüslərə də qoşulub. Dövlətimizin başçısı bu strateji kursu prioritet istiqamətlərdən biri kimi davam etdirərək, narkomanlıqla mübarizədə müsbət nəticələrin əldə edilməsi məqsədilə “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı”nı təsdiq edib”.

Digər çıxış edənlər Həzi Aslanov, Aqil Abbasov, Əli Axundov, Kəmalə Əsgərova və Yəhya Ağayev narkomaniyanın, alkaqolun, siqaretin necə bir bəla olmasından ətraflı danışdılar. Bu vərdişdən uzaq durmağın vacibliyini şagirdlərə başa salmışdırlar. Tədbirdə gəncliyin gələcəyimiz olduğunu və sağlam gəncliyin yetişdirməsinin vacibliyi vurğuladı.

Sonda xatirə şəkilləri çəkildi.

# Azərbaycanın ordu quruculuğunda Prezident İlham Əliyev mərhələsi

Dekabrın 20-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Azərbaycanın ordu quruculuğunda İlham Əliyev mərhələsi" mövzusunda "dəyirmi masa" keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə ulu öndər Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi, general-mayor Rasim Əliyev bildirib ki, müasir Azərbaycan Ordusunun müəllifi ümummilli lider Heydər Əliyevdir. Ulu Öndərin ötən əsrin 70-ci illərində yaratdığı Cəmşid Naxçıvanski adına Hərbi Lisey ordumuzun inkişafında böyük rol oynayıb. Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycanın ordu quruculuğuna verdiyi töhfə təkcə Cəmşid Naxçıvanski adına Hərbi Liseylə məhdudlaşmır. Azərbaycanın müstəqilliyinin bərpasından sonra 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan Ulu Öndərimiz ordu quruculuğu istiqamətində mühüm tədbirlər həyata keçirdi. Heydər Əliyevin bütün sahələrdə siyasətini uğurla davam etdirən Prezident, Ali Baş Komandan İlham Əliyev bu gün ordu quruculuğunun inkişafına böyük töhfə verib. Bu gün Azərbaycan Ordusunun malik olduğu silah və texnikanın 80 faizindən çoxu yenilənib, ordumuz ən müasir silahlarla təchiz olunub. Hərbi şəhərciklərin çox hissəsi yenidən tikilib və ya tam təmir edilib. Prezidentimizin ən böyük xidmətlərindən biri də ondan ibarətdir ki, bu gün Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji durumu yüksək səviyyədədir. Azərbaycan Ordusunun şəxsi heyəti torpaqlarımızı düşmən tapdağından azad etmək üçün hər an Ali Baş Komandanın əmrini gözləyir.

Müdafiə Nazirliyinin əməkdaşı, Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani mövzunun aktuallığından danışaraq bildirib ki, Azərbaycanın hərb tarixində ordu quruculuğunun xüsusi yeri var. Ordu quruculuğuna ən yüksək qiyməti ulu öndər Heydər Əliyev verib. Müasir Azərbaycan Ordusunu yaratmaq ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında ən böyük xidmətlərindən biridir. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğunun yeni mərhələsindən danışıb.






Milli Məclisin deputatları Məlahət İbrahimqızı və Xanhüseyn Kazımlı müdrik və qətiyyətli Ali Baş Komandanımızın rəhbərliyi ilə ordu quruculuğu prosesinin geniş vüsət almasından, Azərbaycan Silahlı Qüvvələrinin regionun ən güclü ordularından biri olmasından, eləcə də Vətən əsgərinin mənəvi, fiziki, iradi keyfiyyətlərinin ən yüksək səviyyəyə çatmasından qürur hissi ilə danışıblar. Deputatlar cəbhə bölgələrinə səfərləri zamanı bunun şahidi olduqlarını bildirərək, ordumuzun yenilməzliyini, hərbi qulluqçuların yüksək vətənpərvərlik hisslərinə malik olmalarını, Vətən torpaqlarının azadlığı uğrunda Ali Baş Komandanın əmrini yerinə yetirməyə qadir olduqlarını qeyd ediblər.

Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunktura və elm şöbəsinin hərb tarixi üzrə dosenti, tarix elmləri doktoru, ehtiyatda olan polkovnik Mehman Süleymanov, Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov, ehtiyatda olan birinci dərəcəli kapitan, tarix elmləri doktoru Nurulla Əliyev, yazıçı-publisist Natəvan Dəmirçioğlu, "AzeriDefence" jurnalının baş redaktoru Rəşad Süleymanov, Azərbaycanın Milli Qəhrəmanı, şəhid Çingiz Qurbanovun atası Salman Qurbanov və digər çıxış edənlər də son illər ölkəmizdə digər sahələrdə olduğu kimi, ordu quruculuğunda da yaşanan sürətli inkişafdan danışıb, Silahlı Qüvvələrimizin maddi-texniki bazasının qısa zaman kəsiyində yeniləndiyini, Azərbaycan Ordusunun Cənubi Qafqazın ən güclü ordusuna çevrildiyini söyləyiblər. Vətən oğullarının bu gün müxtəlif qoşun növlərində xidmət edərək döyüş hazırlığını artırmaqla məşğul olduğunu bildirən "dəyirmi masa" iştirakçıları hərbçilərimizin torpaqlarımızı işğal etmiş Ermənistan silahlı birləşmələri ilə təmas xəttində döyüş növbəsi apardıqlarını, müstəqil dövlətimizin və dövlətçiliyimizin keşiyində ayıq-sayıq dayandıqlarını vurğulayıblar.

Bir daha diqqətə çatdırılıb ki, güclü Azərbaycan Ordusu istənilən döyüş tapşırığını, hücum əməliyyatını yerinə yetirməyə qadirdir, şəxsi heyətin döyüş ruhu yüksəkdir. Ordumuz ən müasir silah və sursatlarla, zirehli texnikalarla, zenit-raket qurğuları, hərbi hava qüvvələri və s. vasitələrlə təchiz olunub. Bütün bunlar Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğının nəticəsində mümkün olub.

Bildirilib ki, ulu öndər Heydər Əliyevin ordu quruculuğu istiqamətində açdığı yol Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Silahlı Qüvvələrimiz yeni inkişaf mərhələsinə qədəm qoyub. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması, ordumuzun müasir silahlarla təminatı istiqamətində görülən mühüm işlər sayəsində Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutub. Ötən ilin aprel döyüşləri Azərbaycan Ordusunun gücünü və işğal altındakı torpaqlarımızı qısa müddətdə azad etməyə qadir olduğunu bir daha göstərdi.

Xüsusi vurğulanıb ki, Azərbaycan xalqı öz Prezidentinə inanır və işğal altındakı torpaqlarımızın Ali Baş Komandanın rəhbərliyi ilə azad ediləcəyi, ərazi bütövlüyümüzün təmin olunacağı, bayrağımızın Şuşada, Xankəndidə, Laçında və işğal altındakı digər əzəli torpaqlarımızda dalğalanacağı günün uzaqda olmadığına qəti əmindir.

## Nəsimi rayonunda Qarabağ əlilləri, veteranları və şəhid ailələri üçün pulsuz göz müayinələri təşkil edilib

Nəsimi rayonunda Qarabağ əlilləri, veteranları və şəhid ailələri üçün pulsuz göz müayinələri təşkil edilib

"Dünyagöz" Xəstəxanalar Qrupu Qarabağ əlilləri və şəhid ailələri üçün pulsuz göz müayinəsi aksiyası keçirir.

Nəsimi rayon icra hakimiyyətindən AZƏRTAC-a bildiriblər ki, sosial aksiyada "Dünyagöz" klinikasının həkim briqadası tərəfindən rayon ərazisində yaşayan şəhid, əlil və sosial qayğıya ehtiyacı olanlar müayinə və müalicə olunurlar.

Pulsuz müayinə aksiyası 1 həftə davam edəcək.

## Stolüstü tennis üzrə veteranlar arasında növbəti turnir keçirilib.

AZƏRTAC Azərbaycan Stolüstü Tennis Federasiyasının saytına istinadla xəbər verir ki, turnirin məqsədi veteranların sağlamlığının möhkəmləndirilməsi, onların fəal idman hərəkatına cəlb edilməsi, stolüstü tennisin təbliği məqsədilə təşkil olunub.

Yarışlarda müxtəlif şəhər və rayonlardan 40-dək veteran qatılıb. Turnirdə 40-49, 50-59, 60 və yuxarı yaş qrupu üzrə təşkil olunan yarışların qalibləri federasiyanın diplom və medalları ilə mükafatlandırılıb.

Birinciliyin qaliblərindən olan İlham Ağayevin gələn il keçiriləcək veteranlar arasında Avropa çempionatında iştirakı Azərbaycan Stolüstü Tennis Federasiyası tərəfindən təmin ediləcək.

# 100-CÜ BAHARA DOĞRU

*Ramiz Duyğunun 80 illik yubileyinə*

Hər bir insanın taleyində elə məqamlar olur ki, həmin anı heç zaman unutmur, yaddan çıxarmır. 1992-ci ilin sentyabr ayı da mənim həyatımda eləcə qalacaq. Ehtiyatdan çağırılmış zabit kimi Azərbaycan Respublikası Dövlət Sərhəddinin Mühafizə Komitəsi - Sərhəd Qoşunlarında xidmətə qəbul olunduğum gün.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi elan edildən az sonra, 1991-ci il dekabr ayının 16-da Dövlət Sərhədinin Mühafizə Komitəsi - Sərhəd Qoşunlarının yaranması ölkənin həyatında gələcək dəyişikliklərə yeni bir təkan verdi. Amma bir çoxları bunun baş tutacağına, Azərbaycanın öz sərhədlərinin etibarlı mühafizəsini təkbaşına təmin edəcəyinə əmin deyildi. Hətta inanmırdılar. Lakin tarix başqa şeyləri dəyərləndirməkdə idi. Müstəqil Azərbaycanın özünün müstəqil ordusu, müstəqil Sərhəd Qoşunları mütləq yaranmalı, inkişaf etməli, Vətənin hüdudlarını göz bəbəyi kimi qorumalı, mühafizə etməli idi. Mənə elə gəlir ki, həmin dövrdə Sərhəd Qoşunları komandanı İsgəndər Allahverdiyevin şair, publisist, uzun illər televiziyada bu gün də əhəmiyyətini itirməyən "Hünər" verilişinin aparıcısı, hərbi jurnalist, polkovnik Ramiz Duyğunun yeni yaranan qurumun İnformasiya idarəsinə rəis təyin etməsi doğru, düzgün seçim olub.

Mən Ramiz Duyğunu həmişə ədəbi-bədii tədbirlərdə çox yaxından iştirak edən, Vətən, sevgi, bütövlük, əhdə sədaqət ruhlu şeirlərini çox eşitmişəm. Hətta yadımdadır, tələbə idim. 8-ci kilometr qəsəbəsində yerləşən kitabxanada xalq şairi S.Vurğunun xatirəsinə həsr olunmuş poeziya gecəsi keçirilirdi. Ramiz Duyğun da dəvətlilər arasında idi. O, yarım saata qədər böyük şairin yaradıcılığından danışdı, şeirlərindən əzbər söylədi. Tədbirin canlı, dolğun keçməsində onun böyük zəhməti oldu. Sonralar Ramiz müəllimin gur səsi çox böyük zallarda, auditoriyalarda keçirilən mötəbər tədbirlərdən gəlirdi. Xüsusən xalqımızın sevilən, heç zaman unudulmayan, xatirəsi qəlblərdən silinməyəcək, istiqlal şairlərimiz Xəlil Rza Ulutürk, Söhrab Tahir olan məclislərdə Ramiz Duyğun həmişə kürsüdə idi.

Qısa zaman kəsiyində yeni yaranan qurumu əhatə edən başqa sahələr kimi informasiya xidməti yüksək peşəkarlıqla fəaliyyətə başlamalı, qarşıda duran çətin və məsuliyyətli vəzifələrin öhdəsindən layiqincə gəlməli idi. Ramiz müəllim yorulmadan çalışır, həm təşkilati, həm də yaradıcılıq məsələlərini həll edirdi. Əsas kadr məsələsi idi. Ramiz Duyğun mətbuat sahəsində tanınan istedadlı qələm sahiblərini yanına dəvət edir, söhbətlər aparır, hər kəsə Vətənin bu çətin anında ön sırada dayanmağı məsləhət bilirdi. Xatirimdədir, 1992-ci ilin iyun ayında onunla görüşümüz oldu. Elə həmin gün mən qəti qərarımı verdim, hərbi xidmətə başlayacaq, Vətənə övladlıq borcumu ödəyəcəkdim. Baxmayaraq ki, Azərbaycan Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzində sədr müavini vəzifəsində idim. Amma nə vəzifə, nə də imkan məni bu seçimimdən döndərə bilməzdi. Qəti qərarımı vermişdim. Sərhəd Qoşunları komandanı İsgəndər Allahverdiyev, baş qərargah rəisi Arif Əliyarov məni qəbul edən zaman sanki çaş-baş qalmışdılar.

İ. Allahverdiyevin: - Sizə o vəzifəni atıb hərbi xidmətə başlamaq çətin olmayacaq ki, sualına qəti şəkildə:

- Yox-dedim.

O, zaman Ramiz müəllim: - Cənab komandan, çətinliyə birgə sinə gərəcəyik, - dedi.

Beləcə, 1992-ci ilin sentyabr ayının həmin günü mənim həyat tarixçəmdə yeni bir mərhələnin başlanğıcı oldu. Xidmətə başlayandan az sonra yəqin etdim ki, qarşıda görülməli o qədər işlər var ki. Ağır yük Ramiz müəllimin çiyinlərində idi. O, çox zəhmətkeş, ciddi nizam-intizam tələb edən, işə son dərəcə vicdanla yanaşan, obyektivliyi, yüksək peşəkarlığı və ətrafındakı insanlara həssaslıqla yanaşması ilə fərqlənirdi. O zaman imzaları dövri mətbuatda tanınan Elşad Qoca, Lətif Şüküroğlu, Mahir Cavadlı, Qardaşxan Əzizxanlı, Mirsaleh Axundov, Zərif Sədiqızı, Xatirə Tağıyeva, Rəbiyyə Şıxəliyeva, Azər İbadov, Füzuli Zəkizadə və foto-müxbir Elxan Bağırovla biz uzun müddət birgə çalışdıq.

Ramiz müəllim Sərhəd Qoşunlarının İnformasiya idarəsinin nizamnaməsini, şəxsi heyətin vəzifələrinin nədən ibarət olacağını toplum halında hazırlayıb komandanlığa təqdim etmişdi. Onun hazırladığı layihə bəyənilmişdi. Mətbuat xidməti, operativ çəkiliş, analitik təhlil və işıq üzü görəcək "Sərhəd qəzeti". O, həmişə bir məsələni önə çəkirdi: "Azərbaycan öz sərhədlərini özü qorumağa başlayır. Bu çox çətin, amma şərəfli bir yoldur. Keçmiş sovet sərhədçiləri bu yerləri tərk etdilər. Onlar sərhəd-pozuculuq, qaçaqmalçılıq kimi qanuna zidd halların baş alıb getməsinə bilərəkdən şərait yaradırdılar. Buna qarşı çox ciddi mübarizə aparan Azərbaycan sərhədçiləri ilə birgə olmalıyıq."

Ordumuz haqqında, əsgər-zabitlərimiz barədə qərəzli yazılar yazan, qeyri-dəqiq məlumatlar yayan şəxslərə və qələm əhlinə Ramiz Duyğunun obyektiv və sərt mövqeyi ortada olub. Xatirimdədir, 1993-cü ilin yanvar ayının ortaları idi. Lənkəran Sərhəd dəstəsinin Rusiya Federasiyası sərhədçilərindən təhvil-təslim prosesi gedirdi. Vəziyyət son dərəcə gərgin idi. Rusiya sərhədçilərinin əksəriyyəti tez-tələsik prosesi başa vurub vətənlərinə qayıtmaq istəyirdilər, amma bəziləri bu işin o qədər də tez başa çatmasını istəmirdi. Müəyyən bəhanələrlə prosesi uzatmaq, nəsə bir xoşagəlməz vəziyyət yaratmağa çalışırdılar. Hətta Moskvaya yalan və qərəz dolu məlumatlar göndərirdilər. Sərhəd Qoşunlarımızın mətbuat xidməti bu cür yalan və qərəz dolu informasiyanı yayanların cavabını dərhal verirdi. O zaman Rusiyanın "Vesti" xəbər proqramı keçmiş sovet məkanında formatına və hadisələri işıqlandırmasına görə yeni yanaşma sərgiləyirdi. Xüsusən tanınmış jurnalist, şərqşünas, uzun müddət Əfqanıstanda işləmiş Yevgeni Kiselyovun aparıcısı olduğu verilişlər öz yanaşma tərzinə görə fərqli idi. Əksər aparıcılar ölkəmizdə baş verən hadisələri birtərəfli və obyektivlikdən uzaq işıqlandırırdılar. Burada erməni izi öz təsirini göstərməkdə idi. 1993-cü ilin yanvarında "Vesti"nin günorta buraxılışında həqiqətdən uzaq, iftira dolu bir məlumat verildi. Guya Lənkəran Sərhəd dəstəsində rusiyalı sərhədçilər və onların ailə üzvləri yerli əhali və müxtəlif qüvvələr tərəfindən təhdidlərə məruz qalır, onların ailələrinə hücumlar da olunur. Çox narahatedici, ciddi fəsadlar törədə biləcək bu informasiyanı dərhal təkzib edilməsinə nail olmaq lazım idi. Bakıdan Lənkəran Sərhəd Dəstəsinin təhvil-təslimi ilə bağlı ən kiçik məlumatlar belə radio və televiziyada işıqlandırılırdı.

Ramiz Duyğun bu məlumatın təkzibi üçün mənə və operator Azər İbadova Rusiya Federasiyasının səlahiyyətlilərindən müsahibə almaq tapşırığı verərək, bu "faktı" "Vesti"yə ötürən şəxsin yalanını ifşa etməyin çox vacib olduğunu bildirdi.

Biz nə qədər cəhd etsək də rusiyalı yetkililər müsahibə vermir, bəhanə gətirib sonra danışarıq, deyirdilər.

Ramiz Duyğun hər yarım saatdan bir bizi arayır, vəziyyətlə maraqlanırdı. Günorta saatlarında Azərbaycan tərəfi Rusiya nümayəndələrinin şərəfinə nahar süfrəsi təşkil etmişdi. Qonaqlar qayıdan zaman hiss olunurdu ki, əhval-ruhiyyələr çox yaxşıdır. Təbii burada cənub süfrəsinin zənginliyi özünü göstərməkdə idi. Vaxt gedirdi. Nəsə bir şey eləmək lazım idi. Böyük zalı xatırladan kabinetdə başda Rusiya nümayəndəsi əyləşmişdi. Çünki təhvil-təslim başa çatmamışdı. Həm Azərbaycan Respublikası, həm Rusiya Federasiyasının nümayəndələri səmimi söhbət edirdilər.

Biz fasilə vaxtı Lənkəran Sərhəd Dəstəsinin qərargah rəisi Cəlil Xəlilovun kabinetində belə bir plan qurmuşduq. Zəng olunur, Rusiya Federasiyasının nümayəndə heyətinin rəhbəri polkovnik Vladimir Perepadoya bu barədə sual ünvanlanır. O, sualı mütləq cavablandırmalı idi. Yeri gəlmişkən, Cəlil Xəlilov Lənkəran Sərhəd Dəstəsində təhvil-təslim prosesinin maksimum Azərbaycanın xeyrinə yekunlaşması üçün bütün bacarığını sərf edir, Uzaq Şərqdə xidmət yerindən tanıdığı sərhədçi dost-tanışların əlaqələrindən də istifadə edirdi. Sərhəd Qoşunlarında digər yüksək vəzifələr tutanda, xüsusilə komandanının şəxsi heyətlə iş üzrə müavini işlədiyi dövrdə C.Xəlilov bu qoşunların formalaşmasına böyük əmək sərf edən peşəkar sərhədçilərdən biri oldu.

Dəstə rəisi Rasim Canməmmədovun tapşırığı ilə yaxşı çay süfrəsi düzəldilmişdi. Rusiya nümayəndəsi polkovnik Perepado ayaq üstə idi. Telefonçu qız "Vesti"də gedən sujetə münasibət bildirməsini xahiş etdi. Rusiyalı polkovnik verilən suala kefi kök halda aşağıdakıları söylədi: - Bütün bunlar yalan və cəfəngiyyatdır. Hər şey dəqiqləşdirilmiş plan üzrə gedir. İstər yerli əhali, istərsə də hakimiyyət orqanları tərəfindən rusiyalı sərhədçilərə və onların ailə



üzvlərinə qarşı heç bir təhdid, təhlükə yoxdur. Hazırda mənim yanımda Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri cənab Valter Şoniya da əyləşib".

Azər İbadov çox ustalıqla açıq qapıdan Perepadonun bütün telefon danışığını lentə aldı. Səfir Şoniya deyilənləri razılıqla başı ilə təsdiq edirdi. Biz mövcud durum barəsində daxili telefonla Ramiz Duyğunu məlumatlandırdıq. Ramiz müəllim "Dərhal Bakıya dönün", Aztv-də görüşərik tapşırığını verdi.

Biz axşam saatlarında artıq Bakıya çatmışdıq, Ramiz müəllim Aztv-nin qarşısında bizi gözləyirdi. Çəkilən sujet montaj olunub, həmin dövrdə yenicə yaranan "215 KL" studiyasının əməkdaşlarının köməyi ilə Moskvaya ötürüldü.

Axşam saat 19:45-də "Vesti" xəbərlər proqramı efirə gedəndə hamımız həyəcan içində idik. Ekranda Yevgeni Kiselyov idi. Adəti üzrə çiyninə tökülmüş xınayı düz saçlarını üz-gözündən yığışdıraraq xəbərlərin anonsunu verdi. İlk xəbəri söyləyəndə o, bir anlığa sanki çaşdı. "Hörmətli tamaşaçılar... Qəribədir... bir anlığa lopa bığlarını çeynəyirmiş kimi susdu. Sonra özünəməxsus halda danışmağa başladı. "Biz Bakıdan təcili xəbər almışıq. Bildiyimiz kimi günorta buraxılışımızda Azərbaycanın Lənkəran şəhərində çətinliklərlə üzləşən Rusiyalı sərhədçilərinin ağır durumundan xəbər vermişdik. Lakin indicə aldığımız xəbər bunun əksini deyir". Ekranda polkovnik Perepadonun açıq-aydın görünüşü və danışığı olduğu kimi səsləndirildi. Polkovnik danışdıqca səfir Valter Şoniya başını yelləyərək rusiyalı səlahiyyətlinin dediklərini təsdiqləyirdi. Bəlkə yazdıqlarım bu gün qəribə səslənə bilər. Amma bunun 1993-cü ilin yanvar ayında baş verməsi əsl sensasiya idi. O zaman ölkəmizə qarşı təkcə total sürətdə informasiya blokadası getdiyi bir zamanda "Vesti" xəbərlər proqramının bu məlumatın həm də gecə buraxılışında da yayınlanması bir uğur idi. Bu xəbərin əks-sədası uzun müddət sürdü.

Ramiz Duyğunun həyatı yaradıcı gənclər üçün bir örnəkdir desəm, səhv etmərəm. O, çox səmimi olmaqla yanaşı çox ciddi, prinsipial bir şəxsiyyətdir. Obyektiv yanaşma tərzi bəlkə də onun ən başlıca xüsusiyyəti idi. Ramiz müəllim Azərbaycanı varlığı qədər sevir, bu hissi başqalarına da sevdirə bilirdi. "Sərhəd" qəzetinin səhifələrində olduqca maraqlı məqalələrin çap olunmasında onun başlıca rolu danılmazdır. Cümhuriyyət dövrünün tarixi ilə bağlı maraqlı məqalələrin, elmi araşdırmaların təşəbbüskarı idi. Görkəmli elm adamları, şair-yazıçı, mədəniyyət xadimləri, generallar barəsində qəzetdə gedən bir-birindən maraqlı yazılar bu gün də öz aktuallığını itirməyib. Gənclərin yaradıcılığına çox böyük önəm verirdi. Həmin dövrdə "Sərhəd"in səhifələrində çox maraqlı elmi məqalələrlə çıxış edən gənclər bu gün görkəmli tədqiqatçılardan sayılırlar. Elə "Sərhəd"in əməkdaşlarının da yetişməsində Ramiz Duyğunun çox böyük zəhməti olub. Həm sərhədin, həm də təhlükəsizlik orqanlarının tarixinin araşdırılması istiqamətində Elşad Qoca, Lətif Şüküroğlu, Mahir Cavadlı, Qardaşxan Əzizxanlı maraqlı əsərləri ilə oxucu rəğbətini qazandılar. Böyük zəhmət hesabına yazılan kitablar öz elmi, publisistik və bədii dəyərlərinə görə heç zaman oxucu yaddaşlarından silinməyəcək.

Ramiz müəllim müstəqil Azərbaycanın yeni yaranmaqda olan milli ordusunun əsl təbliğatçısı idi. "Sərhəd" qəzeti təkcə Sərhəd Qoşunlarının həyatını əks etdirmirdi. 1992-93-cü illərdə Müdafiə Nazirliyinin orqanı olan "Xalq Ordusu" qəzetini bağlamışdılar. "Sərhəd" həm də erməni faşizminə qarşı döyüşən milli ordumuzun zabit və əsgərlərinin qəhrəmanlıqlarından bəhs edən oçerk, məqalələrlə yaddaşlarda qalmaqdadır. Düşmənə sarsıdıcı zərbələr endirərək Vətən uğrunda canını qurban verən şəhidlərimiz haqqında yazılan yazılar həm şəhid ruhuna hörmət, həm də onların valideynlərinə böyük bir təskinlik idi.

Veteranlar daim "Sərhəd"in qonağı olardı. Onlardan alınan müsahibələr çox maraqla qarşılanırdı. Yaxşı xatırlayıram general-mayor Mustafa Nəsirov "Neftçala" təlim-tədris mərkəzində sərhədçilərin qonağı olmuşdu. Hərbi hissənin komandiri nə qədər təkid etsə də general qonaq evinə getməmiş, eləcə də qərargahda onun üçün ayrılmış otaqda əsgər çarpayısını üstün tutmuşdu. O, əsgərlərlə birgə nahar etmişdi. Gənc sərhədçi əsgərlərlə görüş zamanı məşhur general öz zəngin təcrübəsindən söz açmış, Vətənin göz bəbəyi kimi qorunmasında sərhədçi əsgər-zabitlərin qarşısında dayanan çətin və məsuliyyətli vəzifənin olduğunu söyləmişdi. Təlim zamanı general Mustafa Nəsirov gənc əsgərlərə yaxınlaşmış ən çətin idman hərəkətlərini çox ustalıqla yerinə yetirmiş və bununla da gənclərə bir ustad dərsi vermişdi. Generalla görüşdən bəhs edən yazı "Sərhəd"in səhifələrində işıq üzü görəndən sonra Ramiz müəllim mənə məsləhət gördü ki, general Mustafa Cəfəroğlunun zəngin həyatı sərhədçi gənclərə bir örnəkdir. Bu barədə bir əsər yazmaq olar. Sonralar mən "İlk sərhədçi general" adlı sənədli povestimi qələmə alanda redaktorumuzun nə qədər haqlı olduğunu bir daha yəqin etdim.

1992-ci ilin avqusuntunda Naxçıvan Sərhəd dəstəsi tam milliləşdi. Blokadada qalan vətən torpağını "Sərhəd" qəzeti müntəzəm işıqlandırırdı. 1992-93-cü illərdə xalqımızın düçar olduğu ağır bəlalalar cəbhədəki uğursuzluqlar, cəmiyyətdəki başıpozuqluqlar, hərc-mərcilik, ölkənin idarə olunmaması, Azərbaycanın varlığını təhlükə altında olması hər bir namuslu Azərbaycan vətəndaşı kimi R.Duyğunu da çox narahat edirdi. Xalqa xilaskar, qüdrətli sərkərdə lazım idi. Polkovnik Ramiz Duyğu yüksək tribunalardan özünün gur səsi ilə qorxmadan çəkinmədən xalqın nicatını, xilasını Azərbaycanın böyük oğlu, dövlət xadimi Heydər Əliyevin hakimiyyətə gəlməsində görürdü. "Sərhəd" qəzetində bu haqda analitik yazılar dərc edilirdi. 1992-ci ilin avqustunda Rusiya sərhədçiləri Naxçıvanı tərk edib gedən zaman dəstə rəisi polkovnik Lukova yalnız öz şəxsi table silahı çatmışdı. Bütün silah-sursat, döyüş texnikası Muxtar Respublikaya qalmışdı.

Görkəmli dövlət xadimi, ulu öndər Heydər Əliyevin gərgin əməyi və səyi nəticəsində bu iş baş tutmuşdu. Ermənistan tərəfindən hər zaman hücuma məruz qalan bu qədim torpağın mərd oğulları bu silah-sursatla düşmənə layiqli cavab verdilər. "Sərhəd" qəzetinin səhifələrində həmişə Naxçıvanla bağlı materiallar çap olunurdu. Bu həm komandanlığın, həm də Ramiz müəllimin ciddi tələbi idi.

Yarım əsrə yaxındır ki, polkovnik Ramiz Duyğun öz yaradıcılığı ilə Vətənin xidmətindədir. Uzun müddət milli televiziyada "Hünər" verilişinin həm yaradıcısı, həm də aparıcısı olub. Hərbi vətənpərvərlik mövzusunda qələmə aldığı əsərlər yaxşıların yaxşısı kimi dəyərləndirilməkdədir.

O zaman belə məqalələrin çap olunması bəzi adamların xoşuna gəlmirdi. Hətta bir yüksək çinli məmur heç bir təcrübəsi olmayan işçini göndərmişdi ki, belə məqalələr yazan müəllifi və redaktoru işdən çıxarsınlar. Komandanlığın cavabı və təpkisi çox sərt olmuşdu. Həmin gənc oğlan pərt vəziyyətdə geri dönən zaman Ramiz müəllimlə qarşılaşmışdı. Həqiqəti söyləməkdən çəkinməyən, qorxmayan Ramiz müəllim gəncə çox nəzakətlə bunu söyləmişdi: "Oğlum gəncsən, təcrübəsizsən. Səni göndərənə de ki, tövbə evinin qapısı həmişə açıqdır". İllər keçdi, indi həmin oğlan və onun rəisi olmuş şəxs çox mühüm vəzifə daşıyırlar.

Polkovnik Ramiz Məlikov üç ilə yaxın Sərhəd Qoşunlarının orqanı "Sərhəd" qəzetinin redaktoru oldu, sonra Müdafiə Nazirliyinin Mətbuat Xidmətinə rəhbərlik etdi. Ömrün gözəl çağlarındadır, ustad. Geriyə baxanda xeyirxahlıq, nəcib əməllər, Vətənə, dövlətə sədaqətlə xidmət, ordumuza böyük məhəbbət hissinin dayandığı görünür. Ramiz müəllimin arzusu çin oldu. Bu gün Sərhəd Qoşunlarımız da, Milli Ordumuz da öz xidməti-döyüş hazırlığına görə ən yüksək zirvədədir.

Bu gün Azərbaycanın atdığı hər bir uğurlu addım Ramiz müəllimə ruh verir, onu həyata sıx bağlayır.

Üzü 100-cü bahara doğru ustad. Möhkəm cansağlığı, xoşbəxtlik arzusu ilə.

***İlqar Quliyev***

# Görkəmli şərqşünas və tarixçi, Sovet İttifaqı Qəhrəmanı, Dövlət mükafatı laureatı, əməkdar elm xadimi Ziya Musa oğlu Bünyadov



Ziya Musa oğlu Bünyadov 1923-cü il dekabr ayının 21-də Astara şəhərində anadan olmuşdur. 1939-cu ildə orta məktəbi bitirdikdən sonra Bakı Ali Birləşmiş Komandirlər məktəbində təhsilini davam etdirmişdir. İkinci Dünya müharibəsində iştirak edərək, Berlinədək şərəfli döyüş yolu keçmişdir. Leytenant Ziya Bünyadov 1942-ci ildə Mozdok yaxınlığında ilk döyüş sınağından çıxmışdır. Z. Bunyadov II Dünya müharibəsində iki dəfə yaralanır və kontuziya alır. 1945-ci il yanvarın 14-də Ziya Bünyadov əsgərləriylə Polşanın Visla rayonunda Pilitsa çayı üzərində strateji əhəmiyyətli körpünü tutur. Həmin döyüşdə rota 100 nəfər hitlerçini məhv edib, 45 nəfər əsir götürür və düşmənin döyüş texnikasını ələ keçirir. Bu qəhrəmanlığına görə, SSRİ Ali Soveti Rəyasət Heyətinin 1945-ci il 27 fevral tarixli fərmanı ilə bölmənin komandiri Ziya Musa oğlu Bünyadova ən yüksək fəxri ad - "Sovet İttifaqı Qəhrəmanı" adı verilir. Ziya Bünyadov, II Dünya Müharibəsi cəbhələrində göstərdiyi igidlik və qəhrəmanlıqlara görə "Qırmızı Bayraq", "Qırmızı Ulduz", "Aleksandr Nevski", "II dərəcəli Vətən Müharibəsi Ordenləri", "Qafqazın Müdafiəsinə görə", "Varşavanın azad edilməsinə görə", "Berlinin alınmasına görə" və "Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif edilmişdir. Müharibə qələbə ilə bitəndən sonra 1946-cı ilədək Ziya Bünyadov Berlinin Pankov rayonunda hərbi komendant yardımçısı kimi çalışıb.

Ölkənin quruculuq həyatında da fərqlənən qəhrəman Ziya Bünyadov Almaniyanın ən yüksək mükafatlarından biri - "Vaffenbruderşaft"" qızıl medalı ilə təltif edilir. Almaniyanın Gənclər İttifaqı isə Ziya Bünyadovu "Artur Bekker" qızıl medalına layiq görür.

Ordudan tərxis olunduqdan sonra Z.Bünyadov 1946-cı ildə Moskva Şərqşünaslıq İnstitutuna, 1950-ci ildə isə həmin institutun aspiranturasına daxil olur. 1954-cü ildə namizədlik dissertasiyasını müdafiə edən Ziya Bünyadov Moskva və ya Sankt-Peterburqda qalıb işləmək təkliflərini qəbul etməyərək, Azərbaycana qayıdır.

Vətənə qayıtdıqdan sonra Bakı Dövlət Universitetində pedoqoji fəaliyyətlə məşğul olan və Azərbaycan Elmlər Akademiyasının (EA) Tarix İnstitutunda elmi axtarışlarını davam etdirən gənc alim Xilafət və Azərbaycanın VII-XIII əsrlər tarixinin tədqiqatçılarındandır.

Tanınmış alim 1997-ci il fevral ayının 21-də naməlum cinayətkarlar tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir.

Azərbaycanın igid oğlu Ziya Bünyadovun əziz xatirəsi xalqımız tərəfindən daima qürurla anılacaqdır.

# "Azadlıq naminə göstərdiyin ölməz rəşadət dostlarının qəlbində daim yaşayacaqdır"



Mehdi Hənifə oğlu Hüseynzadə 22 dekabr 1918-ci ildə Bakının Novxanı kəndində anadan olmuşdur. 1932-ci ildə o, Azərbaycan Dövlət Rəssamlıq məktəbinə daxil olmuş, 1936-cı ildə oranı bitirmişdir. 1937-ci ildə Leninqradda (indiki Sankt-Peterburq) Xarici Dillər İnstitutunda təhsil almışdır. 1940-ci ildə yenidən Bakıya qayıdıb, Azərbaycan Dövlət Pedaqoji İnstitutunda öz təhsilini davam etdirmişdir.

Böyük Vətən müharibəsi başlandıqdan sonra, 1941-ci ilin avqustunda Mehdi Qızıl Orduya çağrılmış, 1942-ci ildə Tbilisi hərbi piyada məktəbini bitirdikdən sonra cəbhəyə yollanmışdır. Minomyot taqımının komandiri kimi Stalinqrad döyüşündə iştirak etmiş, 1942-ci ilin avqustunda Kalaç şəhəri ətrafındakı qanlı vuruşmaların birində ağır yaralanaraq, almanlara əsir düşmüşdür. Almaniyaya göndərilən Mehdi Berlində üçaylıq tərcüməçi kurslarında iştirak etmiş və alman dilini öyrənmişdir.

1943-cü ilin sonlarında Mehdi, bir dəstə azərbaycanlı əsir ilə faşist əsarətindən qaçıb, Yuqoslaviya və İtaliya partizanlarına qoşuldu. Mehdi Qradnik adına 31-ci diviziyanın 9-cu qarışıq italyan-yuqaslav körpüsü qərargahının xüsusi təxribat-kəşfiyyat dəstəsini yaratmışdı. Mehdi hitlerçi zabit forması və yoxsul kəndli libasında Adriatik sahilində şəhər və kəndləri sərbəst gəzir, partizanlara lazım olan kəşfiyyat xəbərlərini toplayırdı. Faşistlər kino-filminə baxarkən Mixaylo öz cəsur kəşfiyyatçı dəstəsi ilə birlikdə Opçina kinoteatrının binasını partlatmışdı. Bu əməliyyat zamanı 80 nəfər faşist məhv olmuş, 110 nəfərdən çoxu ağır yaralanmışdı. Bundan bir az sonra Mixaylonun rəhbərlik etdiyi dəstə Triestdə alman hərbi xidmətçilərinin aşxanasını partlatmışdı ki, bunun nəticəsində də 100-dən çox alman zabiti ölmüş və yaralanmışdı. Mixaylo, faşistlərə xidmət edən «Il Pikkolo» qəzeti redaksiyasını və mətbəəsini, Qaritsa yaxınlığında faşistlərin 200 ton benzinlə dolu anbarını partlatmış, Qaritsa şəhərində faşist bankını talayıb, partizan dəstəsinə bir milyon manat pul gətirmişdir.

Mixaylonun qəhrəmanlığı bununla bitmir. O, onlarca dəmir və şosse yolları körpüsünü, çoxlu faşist avtomasınını partlatmışdır. Şimali İtaliyanın Udinə şəhərində 700 nəfər yerli partizan və Sovet əsirini əsarətdən qurtarmışdır. Yeni qərargahın göstərişinə əsasən Mixaylo alman hərbi texniki paltarında təkbaşına faşist təyyarə meydanına gəlib bir neçə hərbi təyyarəni mina vasitəsi ilə dağıtmışdı.

1944-cü il noyabrın 16-da Mehdi Hüseynzadə, partizan birləşməsi qərargahının tapşırığı ilə faşistlərin böyük hərbi ləvazimat anbarını partladıb geri qayıdarkən faşist keşikçiləri ilə üz-üzə gəlmişdi. Qəhrəman döyüşçü, xeyli faşist öldürür. Lakin döyüşərkən ağır yaralanır. İgid partizan çoxlu qan itirərək həlak olur. Mixaylonun ölüm xəbəri bütün Adriatik sahilinə yayılmışdı. Çepovani kəndində qəhrəmanın başdaşı üzərinə aşağıdakı sözlər həkk olunmuşdur: «Rahat yat, Azərbaycan xalqının qəhrəman oğlu, əzizimiz Mehdi. Azadlıq naminə göstərdiyin ölməz rəşadət dostlarının qəlbində daim yaşayacaqdır».

1957-ci il aprelin 11-də SSRİ Ali Sovet Rəyasət Heyətinin Fərmanı ilə Böyük Vətən müharibəsi illərində faşist işğalçılarına qarşı mübarizədə göstərdiyi qəhrəmanlığa görə Mehdi Hənifə oğlu Hüseynzadə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verildi.

AZƏRBAYCAN VETERANI

# Əfsanəvi kosmonavtika generalımız

XX yüzillikdə Azərbaycanın dünyaca tanınmış, xalqımıza bəşəri şöhrət gətirmiş övladlarından biri, əfsanəvi kosmonavtika generalı Kərim Abbasəli oğlu Kərimovun anadan olmasının 100 illiyini xalqımız böyük qədirbilənliklə yad edir. Azərbaycan Prezidenti İlham Əliyev xalqımızın görkəmli oğlunun bir əsrlik yubileyinin onu vətənində layiqincə qeyd edilməsi üçün sərəncam imzalamışdır.

Həmin sənəddə bildirilir ki, sovet zamanında kosmik proqramların gerçəkləşdirilməsinin fəal iştirakçısı, görkəmli alim və hərbi xadim, Kosmik Uçuşlar üzrə SSRİ Dövlət Komissiyasının sədri, Sosialist Əməyi Qəhrəmanı, Dövlət və Lenin mükafatları laureatı, Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü, general-leytenant Kərim Kərimov kosmik aparatların və raket texnikasının yaradılması, kosmosa uçuşların intensivləşməsi və kosmonavtikanın inkişaf etdirilməsi sahəsində müstəsna xidmətlər göstərmişdir.

General-leytenant, korifey mühəndis Kərim Kərimovun çatdığı zirvə, əldə etdiyi misilsiz nailiyyətlərlə, qazandığı nüfuz və şöhrətlə təkcə onu bəşəriyyətə bəxş etmiş Azərbaycan xalqı deyil, keçmiş SSRİ-də yaşayan bütün xalqlar, bəşəri zəka və tərəqinin qədrini bilən bütün insanlar fəxr edirlər. SSRİ-nin ən yüksək rəsmi mükafatları sayılan Lenin və SSRİ Dövlət (iki dəfə) mükafatlarını qazanmaq kimi nadir şöhrət tacı soydaşımıza qismət olmuşdur. Bunlardan əlavə, onun zəfər çələngində Lenin, Qırmızı əmək bayrağı (2 dəfə), Qırmızı ulduz ordenləri, müstəqil Azərbaycanın "Şöhrət" ordeni və çoxsaylı medallar sıralanmışdır.

Təəssüf ki, sovet dövründə hərbi-texnoloji sahədəki məxfilik səbəbindən xalqımız öz istedadlı və əzmkar oğlunun yüksəliş yolundan zamanında xəbərsiz qalmış, yalnız az sayda soydaşımız bu barədə məlumatlı olmuşdu.

Kərim Kərimov 1917-ci ilin noyabrın 14-də ( tarixin gedişinə əsaslı təsir göstərmiş Böyük Oktyabr sosialist inqilabından bir həftə sonra) Bakı şəhərində ziyalı ailəsində dünyaya gəlmişdi. Atası Abbasəli Kərim oğlu Kərimov Peterburq Texnologiya İnstitutunu bitirdikdən sonra Bakıya qayıtmış, ömrünün sonunadək neft sənayesində mühəndis-texnoloq işləmiş, 1942-ci ildə 54 yaşında vəfat etmişdi. Anası Sürəyya Əsədulla qızı gimnaziya bitirmiş, ailəsinin qulluğunda dayanmışdı. Evdə Kərimdən kiçik iki oğlan da doğulmuşdu.

1925-ci ildə 8 yaşlı Kərim, 4 yaşlı Süleyman və 2 yaşlı Mustafa anadan yetim qalmışlar. Bundan sonra ataları bir daha ailə qurmamış, həyatını uşaqlarının böyüyüb- tərbiyələndirilməsinə həsr etmişdi. Bu işdə ona uşaqların ana baba-nənəsi Əsədulla və Səyyarə, Kazan Universitetində tibb təhsili almış həkim qardaşı Məlikməmməd kömək etmişdilər.

Anası dünyasını dəyişən il Kərim məktəbə getmişdi. Atası dindar olduğundan əvvəlcə ərəb əlifbasında oxuyub-yazza və "Quran"ı orijinaldan oxuya bilməsi üçün onu Azərbaycan məktəbinə qoymuş, az sonra ərəb əlifbası latın qrafikası ilə əvəz olunduğundan rus məktəbinə keçirmişdi. Yeniyetmə Kərim Opera və Balet Teatrının yanındakı 4 saylı (indi 8 saylı) məktəbin yuxarı siniflərində oxuyanda gələcək ömür-gün yoldaşına rast gəlmiş, orta təhsili bitirdikdən sonra onunla bir sinifdə oxumuş Zəhra Tağıyeva ilə evlənmək qərarlarını qətiləşdirmişdilər.

Kərim uşaqlıqdan radiotexnikaya böyük həvəs göstərmiş, şəhərdə "oxumamış" radio ustası kimi tanınmışdı. O, bu ixtisas üzrə Bakıda ali təhsil ocağı olmadığından sənədlərini Moskva Rabitə Akademiyasına göndərmiş, lakin Novoçerkassk Sənaye İnstitutunun axşam şöbəsinə qəbul edilmişdi. Bu, Bakıya yaxınlığına və gündüz işləmək imkanına görə Kərimin ürəyincə olmuşdu. İki il burada oxuduqdan sonra Azərbaycan Sənaye İnstitutunun energetika fakültəsinə köçürülmüşdü. Bu arada nənəsinin adını qoyduğu qızı Sürəyya dünyaya gəlmişdi. Bakıda o, gündüz oxuyub, axşam işləmiş, Mərdəkanda radio qovşağının müdiri olmuşdu.



Kərim Kərimov institutu bitirmək ərəfəsində Dzerjinski adına Artilleriya Akademiyasına dinləyici kimi cəlb olunmuş, bu onun gələcək böyük karyerasının başlanğıcı olmuşdu. Müharibə ilə əlaqədar akademiya Moskvadan Səmərqəndə köçürüldüyündən Kərim Xəzəri aşıb ora getmişdi. Bilik və bacarığına görə birbaşa beşinci kursa götürülmüş, beşillik proqramı bir ilə keçərək raket silahları ixtisası üzrə təhsil almışdı.

Ortancıl qardaşı Süleyman orta məktəbi bitirən kimi müharibəyə aparılmış, davanın ilk günlərində Lvov yaxınlığında 20 yaşında həlak olmuşdu. Bu xəbər ailəni möhkəm sarsıtmışdı. Sevimli oğlunun yoxluğuna dözməyən ata çox keçməmişdi ki, dünyasını dəyişmişdi. Bu xəbər Səmərqəndə gec çatmış, Kərimi atasının yasına getməyə buraxmamışdılar.

Kərim Kərimov Daşkənd kənd təsərrüfatı maşınqayırma və Sverdlovsk ağır maşınqayırma zavodlarında təcrübə keçmiş, son kurs dinləyicisi kimi ona texnik-leytenant rütbəsi verilmişdi. Akademiyanı baş texnik-leytenant rütbəsi ilə bitirdikdən sonra SSRİ Müdafiə Nazirliyinin qvardiya minaatan hissələrinin baş idarəsinin sərəncamına göndərilmiş, Moskvadakı "Katyuşa" reaktiv mərmi hissələrini yığan "N 385" zavodunda gecə növbəsinə işə götürülmüşdü.

9 May Qələbə gününü də Moskvada - Qızıl Meydanda qarşılamışdı.

Bu zaman onu Müdafiə Nazirliyinin aparatında-Baş Artilleriya İdarəsinin 8-ci raket şöbəsinə böyük mühəndis vəzifəsinə keçirmişdilər. Fədakar əməyinə və Qələbəyə köməyinə görə "Qırmızı ulduz" ordeni və "1941-1945-ci illərin Böyük Vətən müharibəsində Almaniya üzərində Qələbəyə görə" medalı ilə təltif edilmişdi.

1946-cı ildə Kərim Kərimov bir qrup zabitlə almanların müharibədə maye yanacaqla işləyən FAU-2 raketinin sirlərini öyrənmək üçün Almaniyaya göndərilmişdir. Onlar tapşırılan işin öhdəsindən uğurla gəlmişdilər. FAU-2 raketlərinin ilk sınağı 1947-ci ilin oktyabrında olmuşdu.

Həmyerlimiz 1946-cı ildə ailəsini Bakıdan Moskvaya, qaldığı yataqxana otağına gətirmişdi. O zaman onun ağlına da gəlməzdi ki, doğma Bakını bir də 42 ildən sonra görəcək...

1950-ci il hərbi mühəndis Kərim Kərimovun ömrünün ən xoşbəxt illərindən olmuş, Stalin mükafatı laureatı (SSRİ Dövlət mükafatı laureatı) adına layiq görülmüşdü. Bu onun maye yanacaqla işləyən raketlərin işlənib hazırlanmasındakı xidmətlərinə görə aldığı ilk dövlət mükafatı olmuşdu.

Sovet kosmik uçuşlarının start meydanı olan Baykonur kosmodromu tikiləndə Kərim Kərimov SSRİ Müdafiə Nazirliyində şöbə rəisi idi. Kosmik Uçuşlar üzrə Dövlət Komissiyasının tərkibinə onu da daxil etmişdilər. Bu zaman onu şöbə rəisliyindən idarə rəisinin müavini vəzifəsinə irəli çəkmişdilər və vaxtından əvvəl mühəndis-podpolkovnik rütbəsi vermişdilər. Bir müddət keçəndən sonra isə idarə rəisi təyin olunmuş və vaxtından əvvəl mühəndis-polkovnik rütbəsi almışdı.

1961-ci ilin aprel ayının 12-də, SSRİ-nin təyyarəçi-kosmonavtı Yuri Qaqarin Baykonur kosmodromundan "Vostok" gəmisində kosmosa qalxanda onu dünyada ilk kosmik uçuşa yola salanların arasında Kosmik Uçuşlar üzrə Dövlət Komissiyasının üzvü, mühəndis-polkovnik Kərim Kərimov da olmuşdu. Kremldə bu tarixi uçuşu həyata keçirənlərin təltifolunma mərasimində Kərim Kərimova Lenin ordeni və vaxtından əvvəl general-mayor rütbəsi verilmişdi.

General Kərim Kərimov 1965-ci ildən SSRİ Silahlı Qüvvələrində həqiqi hərbi xidmətdə qalmaqla yanaşı, yeni yaradılan Mülki Ümumi Maşınqayırma Nazirliyində Baş Kosmos İdarəsinin rəisi vəzifəsinə keçirilmiş və nazirliyin kollegiya üzvü olmuşdu. 1966-cı ildə isə soydaşımız Kosmik Uçuşlar üzrə Dövlət Komissiyasının sədri təyin edilmişidir. Bu o dövr üçün Azərbaycan oğluna etibar edilən çox yüksək bir səlahiyyət idi. O, bu vəzifələrdə qalmaqla, 1974-cü ildən Mərkəzi Elmi-Tədqiqat Maşınqayırma İnstitutu direktorunun birinci müavini vəzifəsini də icra etmişdi.

1943-cü ildə 26 yaşında böyük leytenant-texnik rütbəsi alan soydaşımız 1967-ci ildə - 50 yaşında general-leytenant-mühəndis rütbəsinə layiq görülmüşdü. Onun çiyinlərindəki iki kiçik ulduz 24 ildən sonra iki böyük ulduzla əvəz olunmuşdu. 1979-cu ildə general Kərim Kərimov kosmik tədqiqatlar sahəsindəki uğurlarına görə ikinci dəfə SSRİ Dövlət mükafatına, 1987-ci ildə isə ikinci dəfə Lenin ordeninə, "Oraq və çəkic" qızıl medalı verilməklə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdü.

1991-ci il general-leytenant Kərim Kərimovun kosmonavtika sahəsində xidmətinin son ili olmuşdur. O, SSRİ-nin süqutu və yaşının 73-ü keçməsi ilə əlaqədar istefa ərizəsi yazmışdır. SSRİ müdafiə nazirinin əmri ilə 52 il xidmətlə istefaya getməsi ilə əlaqədar Kərim Kərimova verilən "Təşəkkür fərmanı" ilə kosmos fatehlərinin komandanının əfsanəvi marafonu sona yetmişdir. Bundan sonra o, Dövlət Komissiyasında məsləhətçi kimi qalmışdır.

General Kərim Kərimovun olduqca gərgin və mənalı keçən ömür yolunun, demək olar ki, hamısı raket texnikasının, kosmik uçuşların öyrənilməsinə və təşkilinə həsr olunmuşdur. O, bu işləri yerinə yetirən böyük alimlər, mütəxəssislər və kosmonavtlar ailəsinin əvvəlcə üzvü, sonra isə yüksək səviyyədə etiraf olunduğu kimi, 25 il əfsanəvi rəhbəri" olmuşdur.

1946-cı ildə Kərim Kərimov Bakıya gəlib, Zəhrasını və balaca Sürəyyanı daimi yaşamaq üçün Moskvaya aparmışdı. 42 ildən sonra-1988-ci ildə isə Bakıya Zəhrasız qayıtdı. Bu 42 ildə Kərim Kərimov general, məktəbli Sürəyya isə Moskvanın elmi-tədqiqat institutlarından birində şöbə müdiri olmuşdu. Zəhra xanıma doğma Bakısını, doğmalarını, yaxınlarını, oxuduğu məktəbi bir də gəlib görmək qismət olmadı...

Bakı aeroportunda təyyarənin pilləkənləri yanında onları milli geyimli qızlar Azərbaycanın nemətləri ilə qarşıladılar. Pişvazlarına vətənin tanınmış, nüfuzlu insanları çıxmışdılar. Ata və qızı ilk olaraq doğmalarının məzarlarını ziyarət etdilər. O vaxt verdiyi müsahibəsində general atasının onun həyat yoluna işıq salmış nəsihətini belə xatırlamışdı: "Atamın bir öyüdü yadımdan çıxmır: Dünya malına göz dikmə, o şey sənindir ki, özün qazanmısan".

Sonrakı günlərdə Kərim Kərimov özünün yaxından köməkliyi ilə yaradılmış Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyində oldu. Burada onu birliyin baş direktoru, professor Tofiq İsmayılov və akademik Hacıbəy Sultanov qarşıladılar. O, Azərbaycan Tarixi Muzeyində və vaxtilə oxuduğu 8 saylı məktəbdə də oldu. Sentyabrın 2-də isə Azərbaycan Dövlət Filarmoniyasında xalqımızın korifey oğlu ilə şəhər ictimaiyyətinin unudulmaz görüşü oldu.

Bu mübarək gəlişdən sonra general-leytenant Kərim Kərimov vaxt tapan kimi Bakıya gəlirdi. Hər gəlişində bizim çalışdığımız Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyinə də baş çəkirdi.

Kosmik miqyası şöhrət və nüfuz sahibi soydaşımız Kərim Kərimov 2003-cü ildə dünyasını dəyişsə də, bu böyük insanın ölməzliyi, nəsillərə örnək olan bioqrafiyası, şöhrəti bizimlə qaldı. Kosmonavtika dahisi Kərim Kərimovun adı hər yerdə və həmişə xalqımıza başucalığı, iftixar qazandıracaq.

***Hacı Niftalı İSMAYILOV,***
***coğrafiya elmləri namizədi,***
***baş elmi işçi,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# ЧЕЛОВЕК БОЛЬШОЙ СУДЬБЫ

начала в предыдущем номере (№ 21 (94))

Первое утро войны застало лейтенанта Абасова недалеко от Севастополя. Самолеты замаскировали. Тишина на опустевшем аэродроме настораживала, вызвала тревожные думы летчиков и Мазаира Абасова. Все они будто сразу стали старше, а лица их посуровели. Вот и он, их командир, испытывал такое чувство, словно все, что было до этого дня, происходило очень давно.

Самолеты еще стояли рассредоточенные, замаскированные, готовые к бою, баки заправлены горючим, бомбы подвешены, пулеметные ленты снаряжены. Все летчики и Мазаир Абасов с минуты на минуты ждали приказа. И вот наконец поступило первое боевое задание. Оно лаконично: нанести удар по вражескому порту Констанца.

Немногословен был и командир. Он сказал летному составу только о самом главном, какой будет боевой порядок, напомнил, что в случае нападения вражеских истребителей строй должен сомкнуться, чтобы экипажи могли прикрывать друг друга. Стоял жаркий день, какие бывают на юге. В легком мареве под крылом ДБ-3 вначале стелилась земля, а потом - море. Шли, строго выдерживая строй.

Должно быть, противник не ожидал ударов и оказался застигнутым врасплох. Наших бомбардировщиков встретили только редкие облачка разрывов зенитных снарядов. Нефтебаки, аэродромы, вражеские машины, танки, самолеты стояли не замаскированными. Первая серия бомб пошла на них.

И только когда загрохотали на земле взрывы бомб, вражеская противовоздушная оборона спохватилась. Открыли огонь скорострельные «Эрликоны». Сколько же их там было. Красные трассы снарядов опутали самолет Абасова, они пронизывали небо вокруг, казалось, невозможно вырваться из огненной сети.

Свой первый боевой налет Мазаир запомнил на всю жизнь.

Внизу продолжали искриться вспышки выстрелов зениток, небо - в брызгах разрывов, и осколки снарядов барабанили по обшивке самолета, но Абасов и его экипаж не свернули с боевого курса. Искусный, хорошо отработанный маневр позволил ускользнуть от зенитного огня. Самолет Мазаира и все остальные ушли лишь после того, как сбросили бомбы на цель. Вся прибрежная полоса Констанцы окутана дымом, охвачена огнем.

Горели суда, горели склады на причалах.

Абасов бросил взгляд на свой экипаж, на летевшие невдалеке наши ДБ-3. Все в порядке, никто не дрогнул перед завесой огня, летчики действовали решительно. Позже на аэродроме комполка увидел в бомбардировщиках немало пробоин, но и это не в счет по сравнению с тем, что удалось сделать. И доклад был краток:

Боевая задача выполнена, потерь нет!..

Командир эскадрильи крепко пожал руку лейтенанту Абасову. Он доволен вдвойне: первое боевое задание выполнено отлично, и еще ему очень приятно, что экипаж, которым он раньше командовал, попал в надежные руки. Молодец, Абасов!

А ведь первое их знакомство с командиром эскадрильи было, мягко выражаясь, не из приятных, Абасов прибыл на Черное море из Ейского авиационного училища. В один из дней они вместе совершали контрольный полет на самолете Р-6. Комэск много наслышался о летчике, прибывшем в их часть, и ему, естественно, не терпелось посмотреть, каков он в воздухе.

Вылетели, и почти сразу же машина стала задирать нос. Вернуть ее в горизонтальное положение никак не удавалось, отказал руль высоты. Скорость быстро падала, самолет мог рухнуть на землю. Но Абасов мгновенно перекрыл пожарный кран и отключил подачу топлива в двигатель. Это позволило избежать взрыва. А до земли оставались считанные метры. Она стремительно неслась навстречу. Хотелось закрыть глаза, чтобы ничего не видеть. Но Мазаир в какую-то долю секунды успел наклонить самолет на правое крыло, и это спасло их жизнь: крыло соприкоснулось с землей, амортизировало удар. Мгновенная реакция, дисциплина мысли, собранная в кулак воля уже тогда отличала Абасова, блестящего мастера своего дела.

Спустя некоторое время, после окончания работы специальной комиссии узнали, что причина аварии обнаружена. Во время текущего ремонта техник соединил тросы лишь временно, как говорится, на живую нитку, а впоследствии забыл все сделать основательно, как положено, это привело к «ЧП».

Потом пошли будни. Полеты, полеты... Комэск сразу оценил не только летное мастерство летчика, но и его творческое отношение к делу, трудолюбие, умение работать с людьми.

Комэск всегда радовался успехам Абасова, стремлению никогда не останавливаться на достигнутом. Вот и в тот день, поздравляя Абасова с первым боевым успехом, комэск не скрывал своего удовлетворения: «Молодец, хорошо начал!»

За первым заданием последовало второе, третье. Экипаж Абасова бомбил вражеские объекты. Громил фашистов он везде - и на воде, и на суше.

Ставя задачу экипажу своего бомбардировщика, Абасов не скрывал всей ее сложности и опасности. Нет, он не сгущал красок, но со свойственной ему прямотой предупреждал: будут атаки истребителей, будет плотный зенитный огонь. Предупреждал, чтобы штурман, стрелки знали, что их ждет. Заранее, конечно, всего не предусмотришь, но человек, внутренне готовый к смертельной опасности, действует в самой сложной обстановке увереннее и смелей.

Хотите победить - не ленитесь думать, соображать, дерзать, - не раз повторял Мазаир своим подчиненным.

Сам Абасов обладал не только удивительным чувством «неба», но и «чувством земли» и старался привить эти качества своим товарищам. Если попытаться определить главное в командирском характере Абасова, то следовала бы назвать дисциплину мысли и действия, требовательность в большом и малом к себе и подчиненным. И вместе с тем, доверие к ним. Этих принципов Мазаир строго придерживался, и они приносили свои плоды.

В один из дней Абасов с группой бомбардировщиков ушли на боевое задание по заданному маршруту. День выдался хмурый. Тучи затянули небо, а вскоре пошел дождь. Шли под облаками, низко нависшими над землей. Ребята все молодцы, крепкие, надежные. И хотя боевого опыта у них еще недоставало, храбрости, задора им не занимать. Внизу, под плоскостями, проплывали зеленые массивы полей, тянулись голубые ленты рек, леса, озера. Часовая стрелка приблизилась к десяти. Уже почти два часа как бомбардировщик в полете. Штурман доложил: «Летим точно по курсу. Скоро цель». И действительно, вот уже под крылом нужный объект. Тут же от командирской машины отделилась серия бомб. И хотя уже неистовствовали зенитки, вслед за ведущим сбросили бомбы и остальные машины. Мощные взрывы сотрясли воздух, а над землей, окутывая все кругом, поплыл густой дым.

Еще во время бомбометания Абасов увидел «мессершмитты» с черными крестами на крыльях и фюзеляжах. И вот уже замелькали их пулеметные трассы. Наши большие, тихоходные бомбардировщики не могли, конечно, успешно бороться с немецкими истребителями, попытаться уйти от них значит подставить спину и обречь себя на верную гибель. Мазаир приказал экипажам сомкнуться и перейти на бреющий полет. Это исключало атаки врага снизу, к тому же сомкнутый строй давал возможность прикрывать друг друга огнем.

Отбита первая атака, вторая, третья. Меткие очереди уже настигли нескольких «мессеров», и они рухнули вниз. С трудом отражая атаки вражеских истребителей, Абасов и его одноползане благополучно возвратились на свой аэродром.

«На четвертый день войны, - говорится в выписке из ЦВМА (опись, д.531, лл.2-3), летчик 63-го авиационного полка Черноморского флота М.Г.Абасов, выполняя боевое задание по бомбардировке вражеской базы в Констанце, был атакован двумя вражескими истребителями. М.Г. Абасов при поврежденном моторе вступил в неравный бой и сбил один вражеский самолет, а другой обратил в бегство. Когда оба мотора вышли из строя, он мастерски произвел посадку самолета на воду. В течение 6 суток, борясь с морской стихией, экипаж добирался до своих берегов. За этот бой М.Г.Абасов был награжден орденом Красного Знамени».

Потери в бою приходилось возмещать двойной, тройной нагрузкой на каждую машину, в том числе и Мазаира Абасова, а также на каждого человека, на его нервы, волю, мускулы. Надо было совершенствовать мастерство, чтобы и малыми силами наносить врагу ощутимый урон.

В отличие от некоторых летчиков, Абасов никогда не пахвалился количеством пробоин в бомбардировщике. Да, они свидетельствовали о том, каким жарким был бой. Но Мазаир Гамид оглы видел в этом и другое: в чем-то просчитался, не сумел перехитрить противника. Поэтому он, как всегда, детально анализировал все, что произошло в воздухе.

Уже в первых боях с фашистами Абасов показал себя не только смелым и мужественным человеком, но и думающим командиром экипажа, умеющим быстро ориентироваться в любой обстановке и принимать правильные решения, когда нередко время измерялось долями секунд и реакция должна быть молниеносной. О людях своего экипажа судил он не по их словам, а по тому, как они вели себя в воздухе, как действовали в бою, и стремился воспитать в них не только высокое морально-боевое качество, но и способность мыслить, анализировать бой, делать практические выводы. На такого человека можно было спокойно положиться во всем.

А когда бомбардировщик Мазаира Гамид оглы Абасова был подбит в ожесточенном бою и загорелся, он сумел пылающую машину посадить, получив тяжелые ожоги.

В военном госпитале медики приняли все меры к спасению бесстрашного летчика Абасова. Малейшее движение вызывало у него жгучую, нестерпимую боль.

Сознание надолго покинуло больного. Продолжительное время он не приходил в себя, но врачи принимали все меры к тому, чтобы спасти его. Иногда казалось, что жизнь оставляла истерзанное тело, и тогда ее, чуть теплившуюся, поддерживали медицинскими препаратами. И наступил перелом. Дела у Абасова пошли на поправку, хотя врачи только спустя много дней сделали окончательный вывод- Мазаир Гамид оглы будет жить. Когда сменили повязку, глаза, ослепленные дневным светом, вначале отказались видеть, но и возвращение зрения не принесло ему облегчение. Он увидел руки - на костях не было кожи, пальцы сжались, на них отсутствовали верхние фаланги. Абасов вначале запаниковал, но затем взял себя в руки, преодолел все физические и моральные трудности... Стал ученым, профессором, писателем, видным общественным деятелем...

Президент Азербайджанской Республики Г.А.Алиев подписал указ, в котором отмечалось, что М.Г.Абасов награждается орденом «Слава» («Шохрат») за большой вклад в развитие исторической науки и воспитание молодежи в духе патриотизма.

«Высокая оценка», - подумал Мазаир Гамид оглы Абасов. И снова взялся за дело. Как он работал! Его энергии можно позавидовать. Ровно в десять утра он был в своем кабинете по ветеранской работе в Сабаильском районе. С утра «нажимал» на телефон, слышался его боевой голос. Коллеги улыбались, «пытает» кого-то Гамидович. Больше всего доставалось медикам и работникам собеса. Фронтовикам нужна помощь... И не раз признавался друзьям в том, что портится у него настроение от того, что всем помочь не удается. Несмотря на неоднократные просьбы, уговоры, авторитетом давил, а результат не всегда был положительный. Хватало ему сил посещать институт и издательства - проводить интересные мероприятия, проведать больного фронтовика и многое-многое другое. «Душевной энергии набираюсь», - часто шутил Мазаир Гамид оглы Абасов. И таким он был стойким, не терял бодрости духа даже в самые тяжелые дни его страшной болезни. Таким и ушел в иной мир... И вот уже несколько лет как Мазаира Гамид оглы Абасова нет среди нас.

Из жизни ушел легендарный фронтовой летчик, ученый, писатель. С него лепили жизнь целые поколения мальчишек и девчонок. И взгляды были устремлены к той вершине мужества, отваги и стойкости, что проявил этот преданный своей стране человек, чей образ запечатлен во многих очерках, статьях и зарисовках о нем, научных трудах, а также сотнях фронтовых и архивных документов. Ушел из жизни легендарный, обаятельный и настоящий человек. Его долгая жизнь навсегда останется ярким факелом истинного патриотизма, силы духа и мужества.

Неслучайно Президент Азербайджанской Республики Г.А.Алиев в состав делегации на празднование 50-летия Великой Победы в Англию, Францию и Россию включил Героя Советского Союза З.М.Буниятова, М.М.Магеррамова, кавалера двух орденов Славы и многих других наград, штурмовавшего Берлин Б.А.Рустамова, вошел в нее и легендарный военный черноморский летчик Мазаир Гамид оглы Абасов.

Президент Азербайджанской Республики Г.А.Алиев находился на трибуне, а представители азербайджанской делегации - на гостевых трибунах.

Все четверо бакинцев восхищались тем, что им выпала такая огромная честь - присутствовать на торжествах в Москве по случаю 50-летия Великой Победы.

С волнением ветераны-бакинцы смотрели на Красную Площадь и думали о том, что многие помнят ее брусчатку. По ней, печатая шаг, шли герои революции, шли гневные колонны парада 7 ноября 1941 года и герои Парада Победы 1945 года, и те, кто дожили до Парада Победы в честь ее 50-летия, а также они четверо, удостоенные высокой чести присутствовать на великих торжествах.

Четверо героев-бакинцев, в том числе и Мазаир Абасов, гордились теми, кто шел по Красной площади, крепко взявшись за руки не потому, что не тверд шаг в их возрасте, а потому что нерушима их связь и в тот день, спустя полвека, неразрывна.

И мне невольно пришли на память бессмертные стихи талантливого поэта Сергея Орлова:

Вот человек, он искалечен.  
В рубцах лицо.  
Но ты гляди  
И взгляд испуганно при встрече  
С его лица не отводи,  
Он шел к Победе, задыхаясь,  
Не думал о себе в пути,  
Чтобы она была такая:  
Взглянуть и глаз не отвести!

Эти стихи полностью относятся к Мазаиру Гамид оглы Абасову. И все четверо бакинцев почувствовали, что испытывали камни Красной Площади, и они, стоявшие на ее гостевых трибунах, гордились этим.

И четверо героев-бакинцев и Мазаир Абасов с большой силой ощутили тогда, что в парадных колонах в честь 50-летия Великой Победы пронесли вместе с боевыми знаменами эхо жизней всех тех, кто пал в боях и кто не дожил до знаменательного юбилея.

Всем им светлая память! Слава и Почет!...

Судьба легендарного человека и боевого летчика - достойный пример патриотического служения Родине. Для многих поколений М.Г.Абасов стал образцом бесстрашия, силы воли, целеустремленности и настойчивости, преданности служебному долгу, любви к Отечеству.

Горько и больно сознавать, что такого человека как Мазаир Гамид оглы Абасов нет больше с нами. Память о нем сохранится навсегда в сердцах его друзей, сыновей и дочерей, а также близких - и русских, и украинцев, и белорусов, и грузин, и азербайджанцев...

Думается, что пришло время всем нам подумать об увековечении памяти достойного сына Азербайджана, летчика-героя Мазаира Гамид оглы Абасова.

Верю, верю и еще раз верю, что правда восторжествует. Так и должно быть! В это я верю!

Александр Гритченко

AZƏRBAYCAN VETERANI

# Yahya Ağayev vətənin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə oğlu ilə birgə iştirak etmişdir



Nizami rayon Veteranlar Təşkilatının sədri Yahya Ağayevin 75 illik yubileyi qeyd edildi.

Tədbir 2017-ci il dekabrın 13-də rayonun Nizami rayon İcra Hakimiyyətinin inzibati binasının Akt zalında təşkil olunmuşdur. Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov, müavinləri İldırım Mehdiyev, Gülnaz İsrafilova Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov və digərləri tədbirdə iştirak etmişdirlər.

Yubiley tədbirini giriş sözü ilə Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov açaraq Yəhya Ağayevin vətən qarşısında xidmətlərindən danışdı. Onu 75 illik yubileyi münasibəti ilə təbrik etdi.

Respublika Veteranlar Təşkilatının sədr müavini polkovnik Cəlil Xəlilov çıxışında Yahya Ağayevin Nizami rayon Veteranlar Təşkilatının sədri kimi gödüyü işlərdən, veteranlara göstərdiyi diqqət və qayğıdan, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində gördüyü ardıcıl işlər barəsində tədbir iştirakçılarına ətraflı məlumat verdi. Daha sonra Respublika Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynovun sərəncamı ilə Yəhya Ağayevə verilən "General Həzi Aslanov" yubiley medalını yubliyara təqdim etdi.

Çıxış edən Yahya Ağayev tədbir iştirakçılarına dərin minnətdarlığını bildirdi. Xatirələrindən, son dövrlərdə gördüyü işlər, eləcə də, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə oğlu Sabir Ağayev ilə birlikdə çiyin-çiyinə vuruşmağından söhbət açdı. Yubilyarın şərəfinə gurultulu alqışlar səsləndi.

Daha sonra çıxış edənlərdən İldırım Mehdiyev, Əli Axundov və Bəhmən Hüseynov və digərləri Yəhya Ağayevin ictimai fəaliyyətini yüksək qiymətləndirdilər.

Sonda Yubilyara Rayon İcra Hakimiyyəti başçısının Fəxri Fərmanı, hədiyyə və gül dəstəsi təqdim olundu.

# Gürcüstanda yaşayan azərbaycanlı fotomüxbirin sərgisi açılıb

Gürcüstanda yaşayan azərbaycanlı müharibə veteranı, "Associated Press" agentliyinin fotomüxbiri Şahvələd Eyvazovun fotolarından ibarət sərgi təşkil olunub. Sərgi Veteranların İşi üzrə Dövlət Xidmətinin yeni istifadəyə verilən binasında açılıb.



Gürcüstanın Baş naziri Georgi Kvirikaşvili yeni binanın və sərginin açılışında iştirak edib.

Baş nazir Gürcüstanda yaşayan veteranların dövlət qayğısı ilə tam əhatə olunduqlarını bildirib. Qeyd edib ki, veteranlar Gürcüstanın suverenliyi, dövlət müstəqilliyi uğrunda çox işlər görüblər və onlar heç vaxt diqqətdən kənarda qalmayacaqlar. Gürcüstan hökuməti veteranların sosial müdafiəsi ilə bağlı yeni proqram və layihələr hazırlayır. Belə bir binanın istifadəyə verilməsi hökumətin yeni layihələrinin tərkib hissəsidir.

Hökumət başçısı bildirib ki, yeni binada veteran jurnalistin fotosərgisinin açılışı veteranlara töhfədir. Gürcüstanın ərazi bütövlüyü uğrunda döyüşləri əks etdirən bu fotolar müharibə veteranlarına keçmişi xatırlatmaq üçün deyil, buraya gələcək insanlara bizim mübarizə əzmimizi əks etdirmək üçün sərgilənir.

Baş nazir veteranları qarşıdan gələn Yeni il bayramı münasibətilə təbrik edib, Ş.Eyvazova təşəkkür edib, ona yaradıcılıq uğurları arzulayıb.

Veteranlarla İş üzrə Dövlət Xidmətinin rəhbəri, briqada generalı Vladimir İmnadze bildirib ki, Ş.Eyvazov özü şəxsən müharibənin ağrı-acısını yaşayan, o ağırlığı çiyinlərində daşıyan əsl vətənpərvərdir. Bu sərgidə onun 200-dən çox fotosu sərgilənir. Bu fotolarda müharibənin ağrı-acısı ilə yanaşı, gürcü xalqının suverenliyi və müstəqilliyi, torpaqlarımızın azadlığı uğrundakı mübarizəsi əks olunub. Fotojurnalist Ş.Eyvazovun lentə aldığı hər bir foto, bizə dövlətçiliyimizin, müstəqilliyimizin necə baha başa gəldiyi hissini yaşadır. O, Ş.Eyvazova minnətdarlıq edib və bildirib ki, fotolar ofisə hədiyyə edilib.

Ş.Eyvazov jurnalistlərə müsahibəsində deyib: "Mən həm Azərbaycanda, həm də Gürcüstanda müharibənin ağrıacısını yaşamışam. Lentə aldığım fotolara baxdıqca o anları yenidən yaşayıram. Gürcüstan hökuməti mənim əməyimi qiymətləndirərək bu sərgini təşkil etdi. Arzu edirəm ki, tarixi Vətənim olan Azərbaycan torpaqları işğaldan azad olunsun, belə bir sərgini Dağlıq Qarabağda açaq".

Sərgiyə baxan Gürcüstanın müdafiə naziri Levan İzoria və digər rəsmi şəxslər Ş.Eyvazovu təbrik edib, ona yaradıcılıq uğurları arzulayıblar.

Yeni binanın və fotosərginin açılışında Gürcüstanın dövlət və hökumət rəsmiləri, parlament üzvləri, diplomatik korpusun təmsilçiləri iştirak ediblər.

*Xətayi Əzizov*
*AZƏRTAC-ın xüsusi müxbiri*
*Tbilisi*

***Allah rəhmət eləsin***

Respublika Veteranlar Təşkilatının kollektivi Qaradağ Rayon Veteranlar Təşkilatının sədri Əli Məmmədovun anası
***Məmmədova Nazxanım Rüstəm qızının***
vəfatından kədərləndiyini bildirir, ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Respublika Veteranlar Təşkilatının kollektivi Binəqədi Rayon Veteranlar Təşkilatının sədri Telman Hətəmovun yaxın qohumu
***Şirinov Cahid Vəliyəddin oğlunun***
vaxtsız və faciəli vəfatından kədərləndiyini bildirir, ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Əziz oxucular, "Azərbaycan Veteranı" qəzeti üçün abunə yazıla bilərsiniz!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Hesab nömrəsi AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN**
**1 illik abunə haqqı - 15 AZN**

**Qeyd: Əziz və hörmətli oxucular, "Azərbaycan Veteranı" qəzetinə abunə olmaq üçün "Azərmətbuatyayımı" ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**
**Əlaqə telefonları: (012) 440- 21-08 (012) 497- 63-58 (111)**

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*

*Məsul katib*
*Şəhla QARAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:** Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
***VÖEN:***
*1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Kaverоçkin küçəsi, 34*
***Əlaqə telefonu: 012** 440-21-08*
***e-mail:** az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi** - 3486*
***Dövlət qeydiyyat tarixi** - 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 60 qəpik*
*Tiraj: 1250*